# Bakı dünyanın ən təhlükəsiz şəhərləri sırasında yer alıb

**Bakı şəhəri dünyanın 2019-cu ildə 50 ən təhlükəsiz şəhərləri arasında yer alıb. "The Economist İntelligence Unit" (EİU) analitik mərkəzi ilə "The Economist" dərgisinin tərtib etdiyi illik hesabatdakı reytinqə görə, Azərbaycanın paytaxtı maksimum 100 xaldan 56,4 xal toplayaraq 49-cu yeri tutub.**



Reytinqə görə, 60 şəhər rəqəmsal təhlükəsizlik, səhiyyə xidmətləri, infrastruktur, fərdi təhlükəsizlik daxil olmaqla 57 müxtəlif göstərici əsasında dəyərləndirilib. Belə ki, Kopenhagen, Dubay, Laqos şəhərləri ilə yanaşı, reytinqdə ilk dəfədir ki, qiymətləndirilən Bakı rəqəmsal təhlükəsizliklə bağlı siyahıda 51,7 xalla 46-cı yerdə, səhiyyə təhlükəsizliyi ilə bağlı siyahıda 64 xalla 41-ci yerdə, fərdi təhlükəsizlik baxımından 63,7 xalla 49-cu yerdə, infrastruktur təhlükəsizliyi üzrə isə 46,3 xalla 54-cü yerdə qərarlaşıb.

Reytinqdə birinci yeri Yaponiyanın paytaxtı Tokio şəhəri tutub. Sonrakı yerlərdə ardıcıllıqla Sinqapur, Osaka, Amsterdam, Sidney, Toronto, Vaşinqton, Kopenhagen, Seul, Melburn yer alıb.

Araşdırma müəlliflərinə görə, hazırda dünya əhalisinin 56 faizi şəhərlərdə yaşayırsa, 2050-ci ildə bu rəqəm 68 faizə çatacaq.

Sosial sahə üzrə ekspertlər bildirirlər ki, Bakının dünyanın təhlükəsiz şəhəri kimi reytinqdə yer alması təsadüfi deyil. Belə ki, bunu xarici qonaqlar və turistlər də təsdiqləyirlər. Eyni zamanda, ölkəmizdəki siyasi sabitlik, eləcə də digər amillər, məsələn, ətraf mühitlə bağlı görülən işlər, səhiyyə qurumlarına çıxış, xəstəxanaların, həkimlərin sayı, təhlükəsiz qida və s. Bakının təhlükəsiz şəhərlər sırasına düşməsinə şərait yaradıb.

***"Xalq qəzeti"***



